**Əməkdaşımız "Kurort" Səhmdar Cəmiyyətinin prezidenti Akif Məmmədovla görüşüb, sistemin dünəni, bugünü və gələcəyi barədə ondan müsahibə almışdır.**




***- Akif müəllim, ölkəmizin sanator-kurort sisteminin özünəməxsus şərəfli keçmişi vardır və hamıya yaxşı məlumdur ki, ulu öndər Heydər Əliyev bu sahədəki potensialdan xalqımızın sağlamlığının möhkəmləndirilməsi, istirahətinin səmərəli təşkili naminə məqsədyönlü şəkildə istifadə edilməsinə böyük əhəmiyyət vermiş, onun inkişafına daim diqqət və qayğı göstərmişdir. Uzun illərdən bəri fədakarlıqla çalışdığınız, adi həkimlikdən cəmiyyətin rəhbərliyinədək yüksəldiyiniz sanator-kurort sisteminin keçmiş və indiki vəziyyətini necə qiymətləndirərdiniz?***

- Gözəl və şəfalı təbiəti, zəngin yeraltı və yerüstü sərvətləri olan respublikamızın sanator-kurort sistemi, doğrudanda, müxtəlif mərhələlərdən, sınaqlardan keçmişdir. Vaxtilə Azərbaycan kurortları nəinki keçmiş SSRİ-də, hətta dünya miqyasında nüfuz və şöhrət qazanmışdı. Bir alman aliminin ölkəmizlə tanışlıqdan sonra dediyi "kimin naftalanı varsa, onun hər şeyi var" sözləri bu şöhrətin əks-sədası sayıla bilər. Həqiqətən də, o zaman respublikamızın sanator-kurort sisteminin vüsətli inkişafında ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Bu inkişaf ümummilli liderimizin rəhbərliyi altında Azərbaycanın öz sosial-iqtisadi və mədəni inkişafına görə digər müttəfiq respublikalardan üstün səviyyəyə qalxması ilə bilavasitə bağlı idi. Ümummilli lider Heydər Əliyev SSRİ Nazirlər Kabineti sədrinin birinci müavini olarkən Xəzər sahili boyunca ümumittifaq əhəmiyyətli sanatoriyalar salınması barədə hökumət qərarının qəbul edilməsinə nail olmuşdu. Bu qərarda Azərbaycanın kurortlar şəbəkəsinin genişləndirilməsi, o cümlədən Xaçmaz-Nabran zonasında irimiqyaslı layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulsa da, ölkədəki mürəkkəb siyasi proseslər onun həyata keçirilməsinə imkan vermədi.

Sonralar, xüsusən 1990-cı illərdə yaranan iqtisadi və sosial böhran respublikamızın sanator-kurort sisteminin inkişafına ciddi şəkildə öz mənfi təsirini göstərdi. Sanatoriya və istirahət evlərinin bir qismi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində erməni silahlı birləşmələri tərəfindən işğal olunan ərazilərdə qaldı, bir qismində isə məcburi köçkün və qaçqın soydaşlarımız yerləşdirildi. Yeri gəlmişkən qeyd edim ki, hazırda da erməni işğalından əziyyət çəkən həmvətənlərimizin 7 min nəfəri cəmiyyətin sanatoriya və istirahət evlərində yaşayır. Onların həyat şəraitinin yaxşılaşdırılması üçün biz də öz imkanlarımız daxilində müəyyən işlər görürük. Ancaq ən böyük arzumuz odur ki, torpaqlarımız tezliklə işğaldan azad olunsun, məcburi köçkünlər öz doğma ev-eşiklərinə qayıtsınlar, onların istifadəsindəki sanatoriyaların fəaliyyəti bərpa edilsin.

Sanator-kurort şəbəkəsinin dövlət müstəqilliyimizin bərpasından sonrakı fəaliyyətinə gəldikdə isə onu deyə bilərəm ki, böhranlı vəziyyətdən çıxış yolu ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra açıldı və sonrakı on il ərzində şəbəkənin qorunub saxlanması, maddi texniki bazasının möhkəmləndirilməsi üçün əlverişli şərait yarandı. Ən başlıcası, ölkəmizdə bərqərar olan ictimai-siyasi sabitlik, əhalinin rifahının yaxşılaşması, yaşayış səviyyəsinin yüksəlməsi vətəndaşlara imkan verdi ki, öz sağlamlıqları və istirahətləri qayğısına qalsınlar. Biz isə onların bu sahədəki xidmətlərə olan ehtiyacını dolğun şəkildə ödəmək üçün qüvvəmizi səfərbərliyə aldıq. Son illərdə "Kurort" Səhmdar Cəmiyyətinin tabeliyində olan sağlamlıq və istirahət ocaqlarında təmir-bərpa və yenidənqurma işləri daha da genişlənmişdir.

***- Respublikamızın sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər sanator-kurort sisteminin fəaliyyətinə necə təsir göstərir?***

- Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin bu sahənin inkişafına diqqət və qayğısını daim hiss edirik. Regionların sosial-iqtisadi inkişafı proqramı çərçivəsində həyata keçirilən tədbirlər, sanator-kurort sisteminin fəaliyyətinə olduqca müsbət təsir göstərir.

Hamımız yaxşı bilirik ki, əhalinin rifahının yüksəldilməsi Prezident İlham Əliyevin fəaliyyətinin əsas qayəsidir. Dövlətimizin başçısı dəfələrlə bəyan edib ki, xalqımız layiqli yaşayış şəraitinə, istirahət etmək imkanlarına malik olmalı, ən keyfiyyətli, ən səmərəli tibbi xidmətdən istifadə etməlidir.





*Azərbaycan özünün zəngin təbii sərvətləri ilə insan sağlamlığının qorunması və istirahət üçün tükənməz potensiala malikdir. Bu torpağın müalicəvi əhəmiyyəti olan su mənbələri ta qədimdən yaxın-uzaq ellərdən gələn xəstələrə şəfa vermiş, onlara yeni həyat bəxş etmişdir. Ötən əsrin ortalarından etibarən isə respublikamızda sanator-kurort sisteminin formalaşmasına başlanmış, dövlət qayğısı sayəsində bu sahədə mühüm işlər görülmüş, uğurlar qazanılmışdır. Azərbaycanın müstəqilliyinin bərpasından sonrakı ilk illərdə ağır böhranla üzləşən bu sistemin dirçəldilməsi ümummilli lider, ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur. Öz fəaliyyətini müasir dövrün tələblərinə uyğunlaşdırmağa çalışan şəbəkə indi yeni inkişaf mərhələsinə qədəm qoyur.*

Regionlara səfəri zamanı cənab Prezident sanatoriya və istirahət ocaqlarının vəziyyəti ilə də yaxından maraqlanır, müvafiq qərarlar qəbul edir. Məsələn, Quba, Qusar, Xaçmaz, Siyəzən və Dəvəçi rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər planında Qalaaltı sanatoriyasının yenidən qurulması, Lənkəran şəhərinin, Astara, Lerik və Yardımlı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər planında 150 nəfərlik Lənkəran (İstisu) sanatoriyasının əsaslı təmir edilməsi barədə konkret tapşırıqlar verilmişdir. Naftalan kurortlarının əvvəlki şöhrətini qaytarmaq üçün də tədbirlər görülür.

Bununla belə, möhtərəm Prezidentimiz cənab İlham Əliyev görülən işlərlə kifayətlənməyərək, bu il fevralın 27-də "Azərbaycan kurortları" Dövlət Proqramı haqqında sərəncam imzalayıb.

Sərəncamda ölkəmizin kurortlar şəbəkəsinin keçmişi və mövcud vəziyyəti nəzərə alınmış, hazırda regionların inkişafı proqramı çərçivəsində ayrı-ayrı bölgələrdə kurortların dirçəldilməsi istiqamətində müəyyən tədbirlərin həyata keçirilməsinə baxmayaraq, aparılan işlərin səviyyəsinin müasir tələblərə uyğunlaşdırılmasının vacibliyi vurğulanmışdır.

Sərəncamda Azərbaycanın zəngin təbii müalicə ehtiyatlarının əhalinin sağlamlığının qorunmasında böyük əhəmiyyəti olduğu vurğulanır. Dövlətimizin başçısı İqtisadi İnkişaf Nazirliyinə, Səhiyyə Nazirliyinə tapşırmışdır ki, Azərbaycan Respublikasının Həmkarlar İttifaqları Konfederasiyasının təklifləri nəzərə alınmaqla "Azərbaycan kurortları" Dövlət Proqramının layihəsini üç ay müddətində hazırlasınlar. Bu proqram layihəsinin hazırlanması zamanı tabeçilik və mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan kurortlarının inkişafına yerli sərmayələrin cəlb olunması, həmçinin belə ərazilərdə Azərbaycan və xarici ölkə vətəndaşlarının müalicəsi və istirahəti üçün müasir standartlara cavab verən infrastrukturun formalaşdırılması məsələləri və 2007-2017-ci illərdə müalicə-istirahət ocaqlarının mərhələli inkişaf strategiyası nəzərə alınacaqdır.

Bu mühüm sənəd ulu öndərimizin xalqımızın sağlamlığının möhkəmləndirilməsi, sanator-kurort sisteminin genişləndirilməsi sahəsində başladığı işləri möhtərəm prezidentimizin uğurla, qətiyyətlə, ardıcıllıqla davam etdirməsinin bariz təzahürüdür.

***- Akif müəllim, ənənəvi sanator-kurort mövsümünün başlandığı bir vaxtda səhmdar cəmiyyətinin tərkibindəki sağlamlıq ocaqlarının mövcud vəziyyəti və imkanları haqqında vətəndaşları ətraflı məlumatlandırmağa ehtiyac var. Bu barədə nə deyə bilərsiniz?***

- Əvvəlcədən qeyd edim ki, işlək vəziyyətdə olan sanatoriya və kurortlarımızda aparılan təmir-bərpa işləri təqdim etdiyimiz xidmətlərin keyfiyyətinin yaxşılaşmasına, müasir standartlara uyğunlaşdırılmasına möhkəm zəmin yaradır. Xidmətimizdən istifadə edənlərin sayı ilbəil artır, bu müsbət dinamikanı qoruyub saxlamaq üçün səyimizi əsirgəmirik. Kurort və sanatoriyalarımızda tibbi xidmətin səviyyəsi yüksəldilir, qida təminatı daha da yaxşılaşdırılır.

Yeri gəlmişkən, vurğulamaq istərdim ki, qarşıya çıxan problemlərin həllində Azərbaycan Respublikası Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Mehbalıyev cəmiyyətə böyük kömək göstərir. Mövcud sistemin qorunub saxlanmasında və inkişafında onun xüsusi xidmətləri vardır.

Müalicə və istirahətə gələnlərin sayının artmasını nəzərə alıb, çarpayı fondunu genişləndiririk. Hazırda "Kurort" SC-nin çarpayı fondu 10146 yerdən ibarətdir ki, bundan da yalnız 1798-i xəstələrin və istirahətçilərin istifadəsindədir. 5686 yerdə qaçqınlar və məcburi köçkünlər müvəqqəti yaşayırlar. 2662 çarpayı yeri isə konservasiya vəziyyətindədir. 2006-cı ildə 12232 putyovka reallaşdırılmışdır ki, bunun da 11891-i AHİK vasitəsilə ehtiyacı olanlara çatdırılmışdır.

Ötən il "Bilgəh" sanatoriyasında geniş tikinti-abadlıq işləri həyata keçirilmişdir. 28 yerlik ikimərtəbəli kottec inşa edilmiş, 3 nömrəli iki-

mərtəbəli 48 yerlik yataq korpusu əsaslı təmir olunub istismara verilmişdir. Yataq korpusları lazımi məişət avadanlığı və texniki vasitələrlə təchiz edilmişdir. Sanatoriyanın su ilə təminatını yaxşılaşdırmaq üçün ərazidə əlavə 5 ədəd texniki su quyusunun qazılması işlərinə başlanmış, su anbarının və su nasosxanasının tikintisi nəzərdə tutulmuşdur. Bu il "Abşeron" sanatoriyasının 4 nömrəli yataq korpusunda da əsaslı təmir işlərinə başlanmışdır.

Bundan əlavə, "Şıx" sanatoriyasında yataq korpusunun əsaslı təmir işləri görülmüş, müalicə korpusunda yeni müalicəvi kabinetlərin yaradılması məqsədilə yenidənqurma işlərinin görülməsinə başlanmışdır.

"Günəşli", "Qaranquş", "Xəzər" sanatoriyalarında da yataq və müalicə korpuslarında təmir-bərpa işləri aparılıb.

Bütün sanatoriyalarda müalicə kabinetləri müasirləşdirilir, yenidənqurma işləri aparılır. Dərman təminatı mərkəzləşdirilmiş qaydadadır. Bu sahədə ciddi problemlər yoxdur. Hər bir sanatoriya profilinə uyğun avadanlıqla təchiz edilir. Təbii amillərlə müalicəyə daha çox diqqət yetirilir.

***- Vaxtilə dünya şöhrəti qazanmış Naftalan kurortlarında vəziyyət necədir? Ölkəmizin həm də digər sanatoriyalarına xaricdən gələnlər varmı?***

- Məlum olduğu kimi, Naftalan nefti periferik əsəb sistemi, hərəkət orqanlarının xəstəlikləri, dəri xəstəlikləri və ginekoloji xəstəliklərin müalicəsində geniş imkanlara malikdir. Bu da ona haqlı olaraq dünyada şöhrət qazandırmışdır. Məsələn, iyirmi il əvvəl burada ildə 75 min adam müalicə olunmuşdur ki, onların da 90 faizi xaricdən gələnlər idi.

Biz Naftalan neftinin şəfalı xassələrindən geniş istifadə etməliyik. Xaricdə Naftalana yenə böyük maraq var. Hazırda "Naftalan" Sanator-Kurort Birliyində yeni 200 çarpayılıq yataq korpusunun tikintisinə başlanmışdır.

***- Akif müəllim, sanatoriya və kurortlara putyovkalar necə reallaşdırılır?***

- Bu məsələ Azərbaycan Həmkarlar İttifaqları Federasiyası vasitəsilə reallaşdırılır. Vətəndaşlar sahə həmkarlar təşkilatlarına müraciət etməklə sanatoriya və kurortlara putyovka ala bilərlər. Bununla yanaşı, həm kollektiv, həm də fərdi qaydada müraciət etməklə, səhmdar cəmiyyətin marketinq, pullu xidmət və putyovkaların satış şöbəsindən nəğd və ya köçürmə yolu ilə putyovka almaq mümkündür (telefon: 496-46-13).

***- Nəhayət, bir məsələyə də toxunmağı vacib sayırıq. Belə ki, bu yaxınlarda möhtərəm Prezidentimizin sərəncamı ilə Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının bir sıra əməkdaşlarına fəxri adlar verilmişdir. Dövlətimizin başçısı səhiyyənin inkişafında xidmətlərinizə görə Sizi də "Azərbaycan Respublikasının əməkdar həkimi" fəxri adına layiq görmüşdür. Bu münasibətlə Sizi təbrik edir, gələcək fəaliyyətinizdə uğurlar diləyirik!***

- Çox sağ olun! Məni belə bir şərəfə layiq gördüyünə görə möhtərəm Prezidentimizə dərin təşəkkürümü bildirir, bu təltifi təkcə mənim əməyimə deyil, sanator-kurort sistemində çalışan fədakar həmkarlarımın fəaliyyətinə verilən yüksək qiymət kimi dəyərləndirirəm. Dövlətimizin başçısını əmin edirəm ki, etimadı doğrultmaq üçün bundan sonra da bütün bilik və bacarığımı xalqımızın sağlamlığının qorunmasına, sanatoriya-kurort şəbəkəsinin təkmilləşdirilməsi sahəsində qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsinə yönəldəcəyəm.

**M.RƏCƏBOVA**